**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN 50- 60 -CI İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-DƏ İCTİMAİ -SİYASİ HƏYAT

İxtisas: 5503.02-Vətən tarixi

Elm sahəsi: Tarix

**İddiaçı:** **Vaqif Kamal oğlu Şükürov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Nuru Zeynalabdin oğlu Məmmədov**

tarix elmləri doktoru, dosent
**Nazim Rəhbər oğlu Məmmədov**

tarix üzrə fəlsəfə doktoru
**Kamal Fətulla oğlu Mahmudov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: ____________ tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ____________ tarix elmləri doktoru, professor
**Mehman Sirac oğlu Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan tarixşünaslığında kifayət qədər ziddiyyətlərin və baş verən hadisələrdə ikili standartın mövcud olduğu problemlərdən biri də XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-in (bundan sonra Azərb. SSR) ictimai-siyasi həyatıdır.

İctimai -siyasi həyat" anlayışı - konkret dövrlərdə, ölkə və regionlarda xalqların, siniflərin, təbəqələrin və ayrı-ayrı fərdlərin siyasi davranışlarının ümumiləşdirilmiş formasıdır. Eyni zamanda öz maraqlarını təmin etməyə çalışan fərdlərin, qrupların, təbəqələrin və digər sosial icmaların siyasi mövcudluq formalarının məcmusudur. [1]

Mövzunu aktuallaşdıran səbəblərdən birincisi onun istər ümumdünya, istərsə də Azərbaycan tarixşünaslığında az işlənməsidir. Bəhs olunan dövrdə ictimai-siyasi həyatda baş vermiş proseslər ayrı-ayrılıqda müəyyən ideologiyaya xidmət səviyyəsində araşdırıldığından bir-biri ilə əlaqəli şəkildə öyrənilməmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycan tarixşünaslıqda, XX əsrin 50-60-cı illərinin tarixşünaslığında əsas hədəf Mir Cəfər Bağırov fenomeni olsa da, onun Azərb. SSR-in ictimai-siyasi həyatında rolu birmənalı qiymətləndirilməmiş, əksər məsələlərdə həddindən artıq tənqid olunmuş, bəzi məsələlərdə idealizə olunmuşdur. Tarixşünaslığın təhlili göstərir ki, M.C.Bağırov şəxsiyyəti dövrün hadisələri və cəmiyyətin qanunauyğunluqları baxımından qiymətləndirilməmişdir. Eyni fikirləri onun sələfləri – respublikaya rəhbərlik etmiş İmam Mustafayev və Vəli Axundov barəsində də söyləmək olar.

Dövrün ictimai-siyasi həyatına birbaşa təsir göstərən dövlət idarə sistemi və onun xüsusiyyətləri, partiya təşkilatının formalaşdırdığı nomenklatur sistemin dövrün iqtisadi həyatına təsiri, iqtisadi proseslərdən yaranan sosial çətinliklər Azərbaycan tarixşünaslığında aktual məsələlərdən biri olaraq qalmaqdadır.

XX əsrin ortalarında baş qaldıran milli dirçəliş meyillərinin - "Xalq azadlığı təşkilatı", "Azərbaycan Dilinin Müdafiə Komitəsi",

---

[1] Общественно-политическая жизнь [Elektron resurs]. Соств. Ошуркова Т. Г. https://center-yf. Ru /data /economy /obshchestvenno-politicheskaya-zhizn.php

“Milli Azadlıq Qərargahı” kimi antisovet qrupların yaranması və onların fəaliyyətinin araşdırılması Azərbaycanın müstəqillik uğrunda mübarizə tarixi baxımından da xüsusi aktuallıq kəsb edir.

Dövrün arxiv sənədlərinin təhlili göstərir ki, bəhs olunan dövrdə də Azərbaycan ziyalısı mövcud rejimə qarşı mübarizə aparmışdır. XX əsrin 80-ci illərin sonlarında milli-azadlıq hərəkatının ideya daşıyıcısı olan ziyalılar məhz bəhs olunan dövrdə formalaşmışlar. Xaricdə olan Azərbaycan mühacirətinin məqsədyönlü fəaliyyəti də Azərbaycan da ictimai-siyasi həyata təsir göstərmişdir

Əsrlər boyu davam edən erməni separatizminin ayrı-ayrı məqamları XX əsrin əvvəllərində və sonralar geniş araşdırılsa da, 50-60-cı illərin erməni separatizminin üstündən sükutla keçilmişdir.

Dövrün tarixşünaslığının təhlili göstərir ki, XX əsrin 50-60-cı illər tarixi sovet tarixçiləri tərəfindən hakim kommunist partiyasının diqtəsi ilə, onun siyasətinə uyğun, birtərəfli şəkildə tədqiq olunub. Tarixi tədqiqatlara bu cür subyektiv yanaşma sonrakı illərin tarixi tədqiqatlarına da öz mənfi təsirini göstərmişdir. Məhz bu səbəbdən sovet dövrü tarixinin digər illəri kimi, 1960-cı illər tarixşünaslığının da yenidən, obyektiv şəkildə tədqiqi aktual olaraq qalır.

Azərbaycanın 50-60-cı illər dövrü tarixşünaslığını xronoloji cəhətdən bir neçə mərhələyə ayırmaq olar. **I mərhələyə** XX əsrin 50-60-cı illərində nəşr olunan kitablar və məqalələr daxildir. Dövrün nəşr məhsulları dərin elmi məzmuna malik olmayıb, daha çox xalqlar dostluğu, beynəlmiləlçilik ruhunda yazılmış, iqtisadi uğurlar dövrün siyasi əhval-ruhiyyəsi üzərində qurularaq əsasən milli kimliyin inkarına xidmət etmişdir.

XX əsrin 50-60-cı illərində Azərb. SSR-in ictimai-siyasi həyatına dair Azərbaycan tarixşünaslığınının araşdırılması göstərir ki, Azərbaycan cəmiyyətində yaşanan siyasi, iqtisadi və mədəni həyatla bağlı ayrı-ayrı mövzularda bütövlükdə 60-dan artıq elmlər doktoru, 100-dən artıq fəlsəfə doktoru dissertasiyası müdafiə olunsa da[2], Dövrün problemlərinə aid tədqiqatlarda, xüsusilə XX əsrin 50-60-ci

[2]Tarix Problemləri Üzrə Elmi Şuranın təsdiq etdiyi dissertasiya mövzularının elektron məlumat bazası [Elektron resurs]. URL: https:/ https:// tarixshurasi. az/emb/

illərində yazılmış əsərlərdə [2 ,3, 4,7, 82, 101, 107][3] dövrünün marksizm-leninizm prinsipləri başlıca istiqaməti təşkil etmişdir. Bu tədqiqatlarda kommunizm quruculuğu yolunda əldə olunan qələbələr qabardılmış, ictimai-siyasi həyatla bağlı məsələlərin, cəmiyyətdə mövcud olan neqativ halların üzərindən sükutla keçilmiş, cəmiyyətin hər hansı eybəcərliyi sosialist sisteminin yox, ayrı-ayrı şəxslərin nöqsanı kimi verilmişdir. Bu baxımdan dövrün tədqiqat əsərlərinin böyük əksəriyyəti müasir dövr üçün elmi aktuallığını saxlamasa da, dövrün ab-havasını öyrənmək baxımından tədqiqata cəlb olunmuşdur.

**II mərhələ** keçən əsrin 70-80-ci illərinə aiddir. Bu illərdə işıq üzü görən əsərlərin ideyasını ayrı-ayrı əmək qəhrəmanlarının həyatı, kommunizm quruculuğunda əldə edilən uğurlar təşkil edir. Bu dövrün ədəbiyyatında artıq ölkə əhəmiyyətli siyasi təlatümlərin üzərindən sükutla keçilir və ya sadəcə quru faktlarla kifayətlənilir, siyasi və tarixi təhlillər müşahidə olunmur. Bunlara S.Qəndilov[4], A.Nadirov[5] və b. əsərlərini göstərmək olar.

XX əsrin 50-80-ci illərinin tarixşünaslığının araşdırılması göstərir ki, cəmiyyətdə yaranan ziddiyyətlər kommunist rejiminin mahiyyətindən irəli gəlmiş, rejimin daxilindəki ziddiyyətləri doğuran səbəblərin tənqidinə qoyulan qadağalar dövrün tarixşünaslığına da təsir göstərmişdir.

**III mərhələ** müstəqillik illərini əhatə edir. Müstəqillik illərində Ulu öndər Heydər Əliyevin təbirincə desək, *„Tarix hər şeyi öz yerinə qoyur və tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi*

---

[3]Axundov,V.Y. Azərbaycan kəndinin sabahkı günü / V. Axundov. - Bakı: Azərnəşr, –1969. – 65 s.; Axundov, V.Y. Azərbaycan Kommunist Partiyası XXV qurultayına Azərbaycan KP MK-nın işi haqqında hesabat məruzəsi / V. Axundov. –Bakı: Azərnəşr, – 1961. – 85 s.; Axundov, V.Y. Oktyabr yolu ilə / V. Axundov. – Bakı: – Azərnəşr, 1968. – 71 s.; Azərbaycan komsomolu: (tarixi oçerk ) / tərt. ed. Ə. Ənnağıyev və b. – Bakı: Gənclik, –1968. – 477 s.; Əlimirzəyev, X. Ə. Azərbaycan kommunizm quruculuğu yollarında /X.Ə.Əlimirzəyev. – Bakı: Azərnəşr, – 1967.– 292 s.; Katibli, M. Bakı: keçmişdə, indi və gələcəkdə / M. Katibli. – Bakı: Bilik Cəmiyyəti, –1961. –69 s.; Qəndilov, S.T. Partiyanın gücü onun birliyindədir / S. Qəndilov. – Bakı: Azərnəşr, –1964, – 42 s.

[4]Qəndilov, S.T. Azərbaycanda partiya quruculuğu məsələləri / S. Qəndilov. – Bakı: Azərnəşr, – 1971. – 291 s.

[5]Nadirov, A. Sovet Azərbaycanının şəhərləri və onlarda sənayenin inkişafı / A.Nadirov. – Bakı: Gənclik, –1973. – 39 s.

*qiymətləndirmək ...”*[6] ideyası əsas istiqamət təşkil edir. Müstəqillik illərində yazılmış əsərlərdə (5, 73, 83, 85, 106, 111,)[7], Lətifə Həsənovanın[8], Nazim Məmmədovun[9], Kamal Mahmudovun[10] və b. dissertasiyalarında problemin ayrı-ayrı məsələlərinə toxunulmuşdur. Adları qeyd olunan müəlliflərin dissertasiya işləri birbaşa araşdırdığımız problemlə əlaqədar olmasa da, dövrün siyasi mənzərəsini aydınlaşdırmaqda yardımçı rol oynamışdır.

Müstəqillik illərinin tarixşünaslığında da dövrün ictimai-siyasi həyatına birmənalı qiymət verilməmiş, dövrün ictimai-siyasi həyatında mühüm rol oynamış şəxsiyyətlərə yanaşmalar müxtəlif olmuşdur. Adıgözəl Məmmədovun əsərlərində[11] M.C.Bağırov ideallaşdırılmış, Azərbaycanın gələcək siyasi həyatında mühüm rolu olmuş digər şəxslərin ictimai-siyasi fəaliyyəti üzərindən sükutla keçilmiş, bəzi hallarda mənfi şəxslər kimi xarakterizə olunmuşdur. Nümunə üçün xatırladaq ki, M. C. Bağırovun görkəmli alim Heydər Hüseynova mənfi münasibətini məcburiyyət kimi qələmə verildiyi

---

[6] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. - Bakı: Azərnəşr, - c. 10. - 2002. - 472 s, s.300.

[7]Arzumanlı,V.M.Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq / V. Arzumanlı, M.Nazim. – Bakı: Qartal, – 1998. – 218 s.; Cəfərov, H.R. Azərbaycan gənclər hərəkatı (XX əsr) / H. Cəfərov – Bakı: Nurlan, – 2009. – 457 s.; Əmrahov, M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı / M. Əmrahov. – Bakı: ADPU, –2009. – 371 s.; Hacıyev, N. X. Dağlıq Qarabağın tarixindən sənədlər // N.Hacıyev. – Bakı: Gənclik, – 2005. – 191 s.; Qasımlı, M.C. Ermənistanın sovetləşdirilməsindən sonra Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər) / M. Qasımlı. - Bakı: Elmin İnkişaf Fondu, - 2016. - 520 s.; Quluzadə, M. N. Azərbaycan SSR-də dövlət və din münasibətləri (1920-1991-ci illər) / M. Quluzadə. – Bakı: 2016. – 315 s.

[8] Həsənova, L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıya-almaları əsasında): / Vətən tarixi üzrə tarix elmləri doktoru dissertasiyanın avtoreferatı /– Bakı, 2005. – 49 s.

[9]Məmmədov, N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923-1991) / N. Məmmədov. – Bakı: Təhsil, –2018. –568 s.

[10] Mahmudov, K.F. XX əsrin 50-ci İllərinin ikinci yarısında Azərbaycanda sosial-iqtisadi proseslər: / tarix üzrə fəlsəfə doktoru dissertasiyanın avtoreferatı /– Bakı, – 2014. – 23 s.

[11] Məmmədov, A.N. Baş tutmamış çevriliş / A. Məmmədov. - Bakı: El-Alliance, 2017. – 280 s.; Məmmədov, A.N. Avtoritar rejim və psixoloji portret / A. Məmmədov. – Bakı: Araz, – 2011. – 194 s.

halda, İmam Mustafayevin M. C. Bağırov və onun komandasına qarşı mübarizəsi az qala xainlik kimi təqdim olunmuşdur. Fikrimizcə, hər iki şəxsiyyətin Azərbaycan tarixindəki fəaliyyətinə obyektiv yanaşılması daha düzgün olardı.

Eldar İsmayılovun "Hakimiyyət və xalq: Azərbaycanda müharibədən sonrakı dövrdəki stalinizm. 1945-1953-cü illər"[12] və "Azərbaycan: 1953-1956-cı illər "mülayimləşmə"nin ilk illəri" [13] monoqrafiyaları xronoloji cəhətdən bir-birini tamamlayır. Birinci monoqrafiyada Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq müharibədən sonrakı ilk illərdə respublikada nomenklatur idarəetmə sisteminə daxil olan dövrün respublika rəhbər işçilərinin və hakimiyyət elitasının idarəetmə sisteminin və rəhbər işçilərinin xarakteristikası verilmiş, respublika əhalisinin SSRİ-də baş verən hadisələrə münasibəti araşdırılmışdır.

İkinci monoqrafiyasının diqqət mərkəzində yuxarı hakimiyyət eşalonlarında və tədricən sovet cəmiyyətində baş verən dəyişikliklər, repressiv idarəetmə metodlarından imtina edilməsi, bəraətvermə prosesinin başlanması, Stalin sisteminin qurbanlarının hüquqlarının bərpa olunması kimi məsələlər dayanır.

Cəmil Həsənlinin "Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959)" monoqrafiyası[14] respublikada yeni rəhbərliyin formalaşması, onun həyata keçirdiyi tədbirlər, dövlət dili haqqında qanunun konstitusiyaya əlavə edilməsi və onun tətbiqi, meydana çıxan çətinliklər, qeyri-azərbaycanlı əhalinin müqaviməti öz əksini tapmış, Stalinin ölümündən sonra ölkə miqyasında rejimin yenidən qurulmasına edilən cəhdlər, Sov.İKP-nin bir sıra plenum qərarlarının Azərbaycana təsiri nəticəsində respublikada siyasi həyatın canlanması arxiv materialları əsasında araşdırılmışdır. Əsərdə 1954-1959-cu illərdə respublikaya rəhbərlik etmiş İ. Mustafayev, M. İbrahimov və Sadıq Rəhimovun Moskvanın

---

[12]Исмаилов, Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг./ Э. Исмаилов. – Баку: Адилоглы, – 2003. – 344 с.

[13]Исмаилов, Э.Р. Азербайджан:1953-1956 первый годы "оттепели"/ Э. Исмаилов. – Баку: Адилоглы, – 2006. – 368 с.

[14] Həsənli, C.P.Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar / C. Həsənli. – Bakı: Adiloğlu, – 2008. – 543 s.

müdaxiləsi ilə vəzifədən uzaqlaşdırılmasının qaranlıq məqamlarına aydınlıq gətirilmişdir. C. Həsənli "Azərbaycanda sovet liberalizmi: Hakimiyyət. Ziyalılar. Xalq (1959-1969)" monoqrafiyasında[15] Vəli Axundovun hakimiyyəti illərində daha çox ədəbiyyat və sənətdə müşahidə olunan yeni meyillərin ictimai-siyasi həyata təsirini araşdırmışdır.

İbrahim Zeynalovun "Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri-Azərbaycan SSR XX əsrin 20-50-ci illərində" monoqrafiyasında[16] 50-ci illərin sonlarında Azərbaycanda rəhbərliyin fəaliyyətinə mərkəzin müdaxiləsi, siyasi böhranın dərinləşməsi, respublikada siyasi rəhbərliyin dəyişdirilməsi ilə bağlı məsələlər araşdırılmışdır.

Tahir Qaffarovun "Azərbaycan kənd əhalisinin həyat tərzi: ümumbəşəri və milli dəyərlərin deformasiyası (1960-1990)" monoqrafiyasında[17] inzibati-amirlik üsul-idarəsi, aqrar sahəyə qeyri-iqtisadi metodlarla rəhbərlik, qeyri-demokratik siyasi sistem, uydurma ehkamlara əsaslanan ideologiyanın inhisarı şəraitində Azərbaycan kəndində əhalinin mülkiyyətə, torpağa, əməyə, iqtisadi-siyasi mənəvi fəaliyyətə özgələşməsi, həyat tərzinin, ümümbəşəri və milli dəyərlərin deformasiyaya uğraması məsələləri təhlil olunur.

Xaləddin İbrahimlinin "Azərbaycan mühacirəti tarixi" monoqrafiyası[18] 50-60-cı illərdə Azərbaycan mühacirətinin fəaliyyəti və legionların təşkili məsələlərinin araşdırılmasında əhəmiyyətli yer tutur.

İsmayıl Umudlunun "Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı" kitabında[19] sovet işğalı dönəmində Azərbaycanda azad fikirli ziyalıların mübarizəsi işıqlandırılmış, təqiblərə məruz qalmış

---

[15]Həsənli, C.P. Azərbaycanda sovet liberalizmi: Hakimiyyət. Ziyalılar. Xalq (1959-1969) / C. Həsənli. – Bakı: Qanun nəşriyyatı, 2018. – 760 s.

[16] Zeynalov, İ. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri - Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ. Zeynalov. – Bakı: "Ləman nəşriyyat" poliqrafiya MMC, – 2017. –720 s.

[17] Qaffarov, T.B. Azərbaycan kənd əhalisinin həyat tərzi:ümumbəşəri və milli dəyərlərin deformasiyası (1960-1990) / T. Qaffarov. – Bakı: Elm, –1992. – 402 s.

[18]İbrahimli, X.C. Azərbaycan mühacirəti tarixi / X. İbrahimli. –Bakı: Elm və Təhsil, – 2012. – 372 s.

[19]Umudlu, İ.B. Sovet dönəmində Azərbaycanda dissident fikir cəryanı / İ. Umudlu. – Bakı: Oğuz eli, – 1999. – 68 s.

Çingiz Abdullayev, Cahid Hilal oğlu, Asif ata (Əfəndiyev), Məhəmməd Hatəmi Tantəkin, Əbülfəz Elçibəy, Şamil Saleh və başqalarının keçdiyi mübarizə yoluna işıq salınmışdır.

Tədqiqat işində elmi jurnallarda nəşr olunan məqalələrdən də istifadə olunmuşdur. İ. Zeynalov[20], K. Mahmudov[21] və C. Bəhramovun[22] məqalələri dövrün ictimai-siyası mənzərəsini açmaqda yardımçı olmuşdur.

Rus tədqiqatçılarından D. Çurakov[23], R. Pixoya[24], A. Şevyakin[25], V. Kozlov[26], və başqalarının kitab və məqalələrində problemə velikorus şovinizm mövqeyindən, Azərbaycanda gedən proseslərə öz maraqlarından yanaşdıqları müəyyənləşdirilmişdir. Milli müstəmləkə maraqlarından çıxış edən rus tarixçiləri araşdırılan dövrdə Azərbaycanda baş verən hadisələrin təhlilində təhriflərə yol vermiş, milli dirçəliş meyillərinə separatçı antisovet hərəkatı, antirus-millətçilik damğası vurmuşlar. Əksər rus tarixçiləri sovet

---

[20]Zeynalov, İ. Azərbaycan KP MK IX Plenumu (6 iyul 1959 - cu il) haqqında / İ. Zeynalov, X. Səfərov //– Bakı: Bakı Universitetinin Xəbərləri: Humaitar elmlər seriyası, 2010 №2, s.40-49; Zeynalov, İ. Azərbaycanın ictimai siyasi həyatı XX əsrin 50-ci illərində //- Bakı: Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, –2002 №4, - s.111-119;

[21]Mahmudov, K.F. XX əsrin 50 - ci illərində Azərbaycanın sosial mədəni həyatı // – Bakı: Bakı Dövlət Universitetinin xəbərləri –2014. №4 – 240-245; Mahmudov, K. F. XX əsrin 50–60-cı illərində SSRİ-də siyasi sistemi təhkimləşdirmə cəhdləri və Azərbaycan // - Bakı: Tarix və onun problemləri –2009. №1-2 – s.181-185.

[22] Bəhramov, C.Azərbaycan dəniz neftçıxarma sənayesinin yaranmasının naməlum səhifələri (1949-1960 - cı illər) //– Bakı: Tarix və onun problemləri , – 1998 №1(3) – s.111-118.

[23]Чураков, Д.О. СССР при Брежневе. Правда великой эпохи / Д.Чураков. – Москва: Вече, – 2014. – 320 с.

[24]Пихоя, Р.Г. Советский Союз. История власти. 1945-1991/ Р.Пихоя. – Новосибирск: Сибирский хронограф, – 2000. – 692 с.

[25]Шевякин, А.П. КГБ против СССР. 17 мгновении измены / А. П. Шевякин. – Москва: Яауза: Эксмо, – 2011. – 608 с.

[26]Козлов, В.А. Неизвестный СССР. Противостояние народа и власти 1953-1985/ В.А.Козлов. – Москва: ОЛМА-ПРЕСС, – 2006. – 448 с.; Козлов, В.А. Массовые беспорядки в СССР при Хрущёве и Брежневе (1953 - начало 1980-х гг.) / Козлов, В.А. 3-е изд., перераб. и доп. Москва: РОССПЭН, – 2009. – 543 с.; Козлов, В.А. Крамола: инакомыслие в СССР во времена Н. Хрущева и Л. Брежнева //–Москва: Общественные науки и современность, –2002. № 4. – с. 68-79.

cəmiyyətində dissidentlik hərəkatından bəhs edərkən Azərbaycanda islam faktorunu önə çəkərək dissidentliyin zəif olmasını cəmiyyətin inkişaf səviyyəsinin aşağı olması ilə əlaqələndirmiş, Baltikyanı, Qərbi Ukrayna, Ermənistan və Gürcüstanda isə dissidentliyin milli müxalifət səviyyəsində olduğu və xalq kütlələri tərəfindən rəğbətlə qarşılandığını göstərmişlər[27].

A. Pıjikov monoqrafiyasında 50-60-cı illərdə Azərbaycanda Sovet hakimiyyətinə qarşı güclü müxalifətin olmadığını özünəməxsus tərzdə əsaslandıraraq yazır: *"Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycanda möhkəm əsaslı milli müxalifət yaranmamışdır. Əgər Baltikyanı ölkələrdə, Ukraynada, Gürcüstanda, Ermənistanda ziyalılar milli hərəkatın liderləri roluna iddia edə bilirdisə, bu tendensiya Azərbaycanda öz təsdiqini tapmırdı. Azərbaycanda milli hərəkat siyasi "gerilik" və "yetişməməsi" baxımından Orta Asiya və Qazaxıstan respublikalarının milli hərəkatları ilə eyni səviyyədə idi. Azərbaycan milli hərəkatı üçün sovet dünyagörüşündən sosial-mədəni uzaqlıq müsəlman amili ilə bağlı olmuşdur".*[28]

Fikrimizcə, bu cür əlaqələndirmə əsassız olub, daha çox dini ayrı- seçikilik fakoruna söykənmişdir. Qeyd olunan ərazilərdə dissidentlik hərəkatının daha mütəşəkkil təşkil edilməsinin səbəblərini yüksək inkişaf səviyyəsi ilə deyil, ictimai-siyasi proseslərin özünəməxsus xüsusiyyətləri ilə ilə əlaqələndirmək daha doğru olardı. Baltikyanı respublikalar və Qərbi Ukrayna ərazisinə gəldikdə isə müəllif nədənsə həmin ərazilərin yenicə SSRİ tərkibinə daxil olması, bu ərazilərdə müxalif fikirli ziyalıların mövcudluğu, bu regionlarda 50-ci illərin əvvəllərinədək Sovet hakimiyyətinə qarşı silahlı müqavimətin davam etdiyini "unutmuşdur".

A.Pıjikovun "*Ermənistanda ziyalılar milli hərəkatın liderləri rolunu iddia edə bilirdisə*" fikri birtərəfli yanaşmışdır. Görünür müəllif 40-60-cı illərdə dünyanın müxtəlif ölkələrindən 10 minlərlə erməni mühacirinin Ermənistana köçünü, onların sovet həyat tərzinə adaptasiyasının çətinliyini nəzərə almamış, dini amili önə çəkmişdir.

---

[27]Шубин, А.В. Диссиденты, неформалы и свобода в СССР/ А.В. Шубин. – Москва: Вече, –2008. – 384 с.

[28]Пыжиков, А.В.Хрущевская «оттепель» /А.В.Пыжиков.-Москва: ОЛМА-ПРЕС, –2002. – 734 с., s.306.

Gürcüstanda isə vəziyyət tamamilə fərqli idi. Burada başlayan narazılığın əsasında repressiyaların təşkilatçığında 30-50-ci illərdə mərkəzi hakimiyyəti əlində saxlayan gürcü partiya elitasının (İosif Stalin, Lavrenti Beriya – Ş. V. ) ittiham oluması dayanırdı. Gürcüstanda baş vermiş 1956-cı il antisovet üsyanının silah gücünə yatırılması azadlıq ideyalarının yenidən dirçəlməsinə, milli oyanışa qarşı yönəlmişdi.

A.Pıjikovun "*Azərbaycanda milli hərəkat siyasi "gerilik" və "yetişməməsi" baxımından Orta Asiya və Qazaxıstan respublikalarının milli hərəkatları ilə eyni səviyyədə idi"* ifadəsi də siyasi qısqanclıqdan irəli gəlmişdir. Çünki XX əsrin 50-60-cı illərində Azərb. SSR-də milli hərəkat özünəməxsus xüsusiyyətləri ilə digər müttəfiq respublikalardan fərqlənmişdi. Araşdırmalar göstərir ki, Azərbaycan xalqının mövcud təzyiqlərə baxmayaraq, islami dəyərləri yaşatmaq cəhdi milli hərəkatda islam faktoru kimi izah oluna bilməz. Əksinə, milli dəyərlər uğrunda aparılan mübarizədə Azərbaycan ziyalısı öndə gedirdi.

Rus tarixçisi V.Kozlovun tədqiqatlarında baş vermiş hadisələrə qiymət verilərkən siyasi maraqlar üstünlük təşkil etmişdir. 1963-cü il Sumqayıt hadısələrinə millətçi antirus hərəkatı kimi qiymət verən V. Kozlov hərəkatda rusların və digər xristian məzhəbli xalqların iştirakını ört-basdır etməyə cəhd etsə də, arxiv sənədlərində bu hadisələrdə rusların və digər millətlərin yaxından iştirak etdiyinə dair faktlar kifayət qədərdir. V. Kozlovun redaktorluğu ilə hazırlanmış "SSRİ prokurorluğunun antisovet təşviqatı və təbliğatı hallarına nəzarət prosesi. Mart 1953-1991" adlı topluda da Azərb.SSR-də antisovet yadfikirliliyin mövcudluğuna və buna görə həbs olunmuş Azərbaycan vətəndaşları barədə məlumatlar vardır.

Beləliklə mövzunun işlənmə dərəcəsinə dair tarixşünaslılğı yekunlaşdıraraq deyə bilərik ki, kiçik istisnalar nəzərə alınmadan istər Azərbaycan, istərsə də rus tarixşünaslığında məsələlərə birtəfli yanaşılmışdır. Bu baxımdan Azərbaycanın müstəqilliyinin bərpasından sonra baş verən hadisələrin səbəb və nəticə əlaqələrinə yeni baxışın formalaşması, yeni arxiv materiallarının əldə olunması problemə yeni prizmadan yanaşılmasını tələb etmiş və dissertasiyada bu baxış əsas götürülmüşdür.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat mövzusunun obyektini XX əsrin 50 - 60 - cı illərində Azərb. SSR - də ictimai-siyasi proseslər və onlara təsir edən amillər təşkil edir. Tədqiqatın predmetinə isə ictimai-siyasi həyatın tərkib hissəsi olan dövlət idarə sistemi, onun xüsusiyyətləri, nomenklatur sistemi, iqtisadi proseslər, dövlət-din münasibətləri, milli dəyərlərin qorunması, heç vaxt sönməyən azadlıq mücadiləsi, dissident hərəkatı, respublikanın ərazi bütövlüyünün qorunub saxlanılması uğrunda mübarizə və s. məsələlərin araşdırılması daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində XX əsrin 50-60-cı illərində Azərb. SSR-də ictimai-siyasi həyata təsir göstərən dövlət idarə sistemi, onun xüsusiyyətləri, dövlətin nomenklatur sistemi, respublika rəhbərliyinin mərkəz qarşısında milli maraqlarının qorunması uğrunda mübarizəsi, yaradılmış antisovet qruplar və dissident hərəkatının mövcudluğunun Azərbaycan tarixşünaslığında az toxunulan aktual problemlər fonunda işlənməsi qarşıya məqsəd kimi qoyulmuşdur.

Tədqiqatla bağlı aşağıdakı məsələlərin araşdırılması vacib hesab edilmişdir:

1. XX əsrin 50-60-cı illərində Azərb. SSR-də ictimai - siyasi həyata təsir göstərən etno-demoqrafik prosesləri, dövlət idarəetmə sistemini, qanunverici, icraedici, məhkəmə və prokurorluq sistemlərini öyrənmək, dövlətin kadr siyasəti, Azərbaycan Kommunist Partiyası (bundan sonra AKP) strukturları üzrə təhlillər və ümumiləşdirmələr aparmaq;

2. Respublikada gedən iqtisadi proseslərin ictimai-siyasi həyata həlledici təsirini müəyyənləşdirmək;

3.Azərbaycan rəhbərliyinin Moskva qarşısında milli maraqların qorunması uğrunda mübarizəsini mənbələrlə sübut etmək, millimənafeyi uğrunda mübarizənin çətinliklərini üzə çıxarmaq;

4. SSRİ-nin din siyasətinin mahiyyətini, yeridilən antidin siyasətin səbəblərini müəyyənləşdirməklə müasir dövrdə dini ekstremizmin meydana gəlmə səbəblərinə aydınlıq gətirmək;

5. Azərbaycanda antisovet əhval-ruhiyyənin yaranmasının səbəb və nəticələrinin XX əsrin 50-60-cı illərində təşkil edilmiş antisovet qrupların və təşkilatların fəaliyyətinə, həmçinin Azərbaycan

mühacirətinin ictimai-siyasi həyata təsirini müəyyən etmək;

6. Erməni seperatçı qüvvələrinin Azərb. SSR-ə qarşı ərazi iddialarına, antitürk və anti-Azərbaycan fəaliyyətlərinə aydınlıq gətirmək;

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını elmi obyektivlik, problemlə bağlı faktların və məlumatların ümumi araşdırma üsulları - elmi analiz və sintez, mənbə materiallarının müqayisəli təhlili, mənbələrə və tarixi ədəbiyyata tənqidi münasibət, araşdırılan problemə aid materialların təhlili gedişində zəruri olan deduksiya və induksiya, analiz və sintez, mətbuat materiallarının kontent təhlili, müşahidə və proqnozlaşdırma təşkil edir.

Tarixi retrospektiv metod vasitəsilə ictimai münasibətlər tarixi, sosioloji metodla ictimai-siyasi hadisələrin, mövcud iqtisadi (istehsal) münasibətlərin və cəmiyyətin sosial strukturunun ölkədə hakim olan ideologiyadan, mədəni dəyərlərdən asılılığı müəyyən edilmiş, institusional metodla siyasi fəaliyyətin həyata keçirildiyi institutların fəaliyyəti (dövlət idarəetmə strukturları, ictimai təşkilatların və birliklərin fəaliyyəti) araşdırılmışdır. Kontent-analiz metodu ilə ictimai - siyasi həyatı tənzimləyən qanunvericilik öyrənmiş, ideoloji siyasətin əsasında dayanan fundamental prinsiplər üzə çıxarılmış, tənqidi - dialektik metodla siyasətin tənqidi təhlili aparılmış, onun daxili ziddiyyətləri, siyasi dəyişikliklərin hərəkətverici qüvvələri müəyyən edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-XX əsrin 50-60-cı illərində Azərb. SSR-də hakimiyyət-xalq münasibətlərinə təsir göstərən dövlət idarəetmə sisteminin problemləri və neqativ fəaliyyəti ictimai-siyasi həyata mənfi təsir göstərmişdir;

-Araşdırılan dövrdə sosial-iqtisadi və ictimai-siyasi proseslər respublika əhalisinin ictimai həyatına təsir göstərən amillərdən biri olmuşdur;

- SSRİ rəhbərliyinin Azərbaycanla bağlı milli siyasəti milli dəyərlərin məhv edilməsinə yönəlmişdir;

-Müasir dövrdə formalaşmış dini ekstremizmin meydana gəlmə səbəblərinin bir qismi XX əsrin 50-60-cı illərində həyata keçirilən sovet din siyasətinin nəticəsidir;

-XX əsrin 50-60-cı illərində həyata keçirilən repressiyalara

baxmayaraq Azərbaycan ziyalıları gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması uğrunda mübarizəni davam etdirmişdir;

-Azərb. SSR-də antisovet əhval-ruhiyyənin yaranmasının səbəb və nəticələri ictimai-siyasi həyata öz təsirini göstərmişdir;

-Erməni seperatçı qüvvələri Azərbaycana qarşı ərazi iddialarını, antitürk və anti-Azərbaycan fəaliyyətlərini 50-60-cı illərdə də davam etdirmişlər;

**Tədqiqatın elmi yeniliyinin** əsasını Azərb. SSR-in ictimai - siyasi həyatında baş verən dəyişikliklərin aşkara çıxarılması təşkil edir.

-Azərb. SSR dövlət idarə etmə sistemi təhlil edilərkən Azərb. SSR Nazirlər Sovetinin tərkibində olan Müdafiə Nazirliyinin tədqiqata cəlb olunmuşdur;

-İlk dəfə olaraq Azərbaycan dissidentlik hərəkatına milli-azadlıq və antisovet hərəkatının müstəqil siyasi maarifçilik istiqaməti kimi baxılmışdır;

-Tədqiqatçıların diqqətindən kənarda qalmış, XX əsrin 50-60-cı illərində rus müstəmləkə sisteminə qarşı sönməyən azadlıq davasının bilinməyən fəalları üzə çıxarılmışdır;

-Azərbaycan ziyalılarının ilk milli kimlik təşkilatı olan Milli Azadlıq Qərargahı haqqında pərakəndə olan məlumatlar toplanaraq tədqiqata cəlb olunmuşdur;

-SSRİ-nin atezim siyasətin nəticəsi olan müasir dini ekstremizmin meydana gəlmə səbəbləri üzə çıxarılmışdır;

-50-60-cı illərdə erməni separatizminin təzahür formaları müasir tarixi reallıqlar baxımından araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri hissəsini Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin (ARPİİİSSA) və Azərbaycan Respublikası Dövlət Arxivinin sənədləri (ARDA), Azərb SSR Ali Sovetinin III-VII cağırış iclaslarının stenoqrafik hesabatları, SSRİ və Azərb. SSR Konstitusiyaları, Sov.İKP və AKP qurultaylarının və plenumlarının materialları, Azərb. SSR-in qanunları, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları və Azərb. SSR Nazirlər Sovetinin qərarlarının xronoloji külliyyatı təşkil edir. Tədqiqat prosesində Rusiya Federasiyası arxivlərinin materialların nəşr olunmuş sənəd

toplularından, dövrü mətbuat material-larından istifadə olunmuşdur.

Dissertasiyada istifadə edilmiş faktiki materiallardan, elmi nəticələr və ümumiləşdirmələrdən Azərbaycan tarixinə dair dərsliklər və dərs vəsaitlərinin yazılmasında, ixtisas kurs və seminarların aparılmasında köməkçi vəsait kimi istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas elmi nəticələri və məzmunu müəllifin xaricdə və Azərbaycanda nəşr edilən nüfuzlu elmi jurnallarda çap olunmuş 15 məqaləsində, respublika və beynəlxalq elmi konfranslarda etdiyi çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmiş və kafedranın 2020-ci il 15 dekabr tarixli (prot.№6.) iclaslarında müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiyanın ümumi həcmi (istifadə edilmiş ədəbiyyat siyahısı, əlavələr, ixtisarlar istisna edilməklə) 287 838 işarədən ibarətdir. O cümlədən Titul səhifəsi- 326, Mündəricat-1 602, Giriş -22 942, I Fəsil -73 450, II Fəsil -104 230, III Fəsil-74 173, Nəticə- 11 115 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın "**XX əsrin 50 - 60-cı illərində Azərbaycan SSR-də ictimai-siyasi həyata təsir göstərən etno-demoqrafik proseslər, dövlət idarəetmə sistemi və iqtisadi həyat"** adlı **I fəsli 4** yarımfəsildən ibarətdir. "**Azərbaycan SSR-də etno-demoqrafik proseslər" adlanan birinci yarımfəsildə qeyd edilir** ki, II Dünya müharibəsi dövründə Azərb. SSR-dən orduya 700 min nəfərdən çox adam səfərbər olmuş, onlarıdan 275 min nəfəri müharibədə həlak

olmuş[29], təxminən 145 min nəfər müxtəlif səbəblərdən vətənə dönməmişlər. Əhalinin bir qismi aclıq və müxtəlif məhrumiyyətlər səbəbindən vəfat etmiş və ya iqtisadi çətinliklər ucbatından digər respublikalara miqrasiya etmişlər. Yalnız 1950-55-ci illər ərzində Azərbaycanda əhali artımında yüksəliş müşahidə olunmuş, əhalinin sayı 20%-dən çox artmışdır[30]. Bu yüksəlişə təbii artımla yanaşı, azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərb.SSR-ə deportasiyası və Məshəti türklərinin böyük bir qisminin respublikada məskunlaşması təsir göstərmişdir.

XX əsrin 50 - 60 - cı illərində Azərb.SSR - də baş verən sosial dəyişikliklər şəhər əhalisinin sürətlə artması olmuşdur. Şəhər əhalisinin sayının sürətlə artmasında “Yalançı urbanizasiya” amili mühüm rol oynamışdır. Belə ki, şəhər əhalisi, əsasən mövcud şəhərlərdə əhalinin təbii artımı, kənd yerlərindən şəhərlərə əhalinin köçməsi ilə yanaşı, ayrı-ayrı yaşayış məntəqələrinin şəhərlər kateqoriyasına keçməsi hesabına artmışdır[31].

İctimai-siyasi həyata təsir göstərən urbanizasiya prosesi daha çox təbii inkişaf səbəbli deyil, dövlətin cəmiyyətin bütün sahələrini, o cümlədən iqtisadiyyatı tam nəzarətdə saxlaması ilə əlaqədar əhalinin iqtisadi maraqlarının təmin olunmaması ilə bağlı idi. Deməli, urbanizasiya sənayenin inkişafı nəticəsində əhalinin yerdəyişməsinə gətirib çıxaran obyektiv səbəblə yanaşı, Sovet dövlətinin kənddə yeritdiyi uğursuz siyasətin nəticəsi olan subyektiv amillərlə də bağlı idi.

**İkinci yarımfəsil “Azərbaycan SSR - də dövlət idarəetmə sistemi”** adlanır. Yarımfəsildə əsaslandırılır ki, qanunverici funksiya daşıyan Ali Sovet demək olar ki, ölkənin siyasi həyatında elə bir əhəmiyyət daşımırdı. Sessiyalar yalnız Rəyasət Heyətin qəbul etdiyi fərmanları təsdiq etmək üçün toplanırdı. Bu fərmanlar isə qanunverici orqanın razılığı və iştirakı olmadan MK aparatında hazırlanırdı. Azərb. SSR Ali Sovetin Rəyasət Heyəti qanunverici funksiya daşımaqla yanaşı, həm də sərəncamverici və fərmanverici funksiyanı yerinə

[29] Muradov, Ş. M. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar / Ş.M.Muradov, C.Ə.Baxış –Bakı: Avropa, –2013. – 135 s., s.13
[30] Yenə orada, s.34.
[31] Nadirov, A. Sovet Azərbaycanının şəhərləri və onlarda sənayenin inkişafı / A.Nadirov. –Bakı: Gənclik, –1973. – 39 s.,s.12.

yetirirdi.

Yerlərdə bələdiyyə rolu oynayan Zəhmətkeş Deputatları Sovetləri adlanan yerli sovetlər aşağıdan yuxarıya doğru kənd, qəsəbə, şəhər, rayon və vilayət sovetlərinə bölünürdü.

Tədqiqat işində Ali icra hakimiyyəti olan Nazirlər Soveti timsalında şişmiş bürokratik icra hakimiyyəti yanaşı, Məhkəmə sistemi, onun quruluşu: mülki işlər üzrə kollegiyaları, cinayət işləri üzrə kollegiyaları, Ali Məhkəmə Plenumu, Ali Məhkəməsinin Rəyasət Heyəti, rayon (şəhər) Xalq Məhkəmələri, onların hakimləri, xalq iclasçıları, Yoldaşlıq Məhkəmələri institutu və Prokurorluq sistemi funksiyaları səlahiyyətləri, onların formalaşma yolu, sosial və etnik tərkibi öyrənilmişdir.

**Üçüncü yarımfəsil "Azərbaycan Kommunist Partiyası. Nomenklatur sistem və kadr siyasəti" adlanır**. Yarımfəsildə əsaslandırılır ki, aşağıdan yuxarıya doğru rayon, şəhər, vilayət, respulika partiya komitəsinin I katibləri dövlət idarəetmə sistemi üzərində məhdudiyyətsiz hakimiyyətə malik idilər.

Ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı plan və qərarlar partiyanın ali orqanı olan Qurultayda qəbul olunurdu. Qurultay qərarlarının həyata keçirilməsini təmin etmək üçün mütəmadi olaraq qurultaylararası plenumlar çağırılırdı. Plenumlararası idarəetməni siaysi büro həyata keçirirdi. MK bürosunun qərarı qəti idi, icrası qanunverici və icraedici hakimiyyət üçün məcburi idi.

Sovet siyasi sisteminin başlıca institutlarından biri nomenklatura institutu idi, onun əsasında əsas vəzifələrə namizədlərin irəli sürülməsi və təyin edilməsi partiya komitələri tərəfindən həyata keçirilirdi. SSRİ rəsmi sənədlərində, ictimai - siyasi ədəbiyyatda "elita" terminindən istifadə olunmasa da, əvəzində "nomenklatura" termini partiya-dovlət rəhbərliyinin xarakteristikasını dəqiq əks etdirirdi.

**I fəslin sonuncu 4-cü yarımfəsli "İqtisadi proseslərin ictimai-siyasi həyata təsiri"** adlanır. Qeyd olunur ki, XX yüzilliyin 50-60-cı illərində Azərb. SSR-nin xalq təsərrüfatı da mərkəzləşdirilmiş qaydada idarə olunur, sahə strukturlarının yaradılması, planlaşdırılması və idarə edilməsi mərkəzin qərarı ilə nizamlanırdı. Respublikanın iqtisadiyyatını daha da inkişaf etdirmək vəzifələri xalq

təsərrüfatının V-VIII beşillik planlarında, habelə yeddiillik (1959-1965-ci illər) planda müəyyən edilmişdi[32].

**II Fəsil "XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-də siyasi həyat"** adlanır. Bu fəsil dörd yarımfəslə, o cümlədən **9** paraqrafa bolünür.

**Dissertasiyanın II fəslinin 2.1 yarımfəsli "50-ci illərin əvvəllərində respublikada siyasi vəziyyət. Azərbaycançılıq ideologiyasının güclənməsi" adlanır və 2 paraqrafa bölünür**

. **"Velikorus şovinizmi və Azərbaycan"** adlanan I paraqrafında əsaslandırılır ki, II Dünya müharibəsindən sonra xalqların bərabərliyi ideologiyasının tədricən arxa plana sıxışdırılması, sovet milli siyasətinin nəzərə çarpacaq dərəcədə dəyişikliyə uğrayaraq ənənəvi "velikorus" şovinizminin cəmiyyətdə mahiyyətcə köhnə, məzmunca yeni formada dirçəlməsi prosesi başlamışdır. Bu prosesdə milli-etnik mədəniyyətlərin inkarı ön planda olmuş, SSRİ-də yaşayan millətlərin tarixinin öyrənilməsinə sinfi aspektdən yanaşmaq və ya tarixi saxtalaşdırmaqla xalqda öz keçmişinə, öz tarixi şəxsiyyətlərinə nifrət və ikrah hissini formalaşdırmaq, əvəzində rus millətini alicənab, təvazökar, böyük intellektə sahib olan bir millət kimi xalqlara sırımaqla digər xalqları cılızlaşdırmaq siyasəti yeridilirdi.

Paraqrafda milli-ictimai fikrin ideya daşıyıcısı olan milli ziyalıların həm fiziki, həm də mənəvi repressiyaya məruz qalmasına, "Kitabi-Dədə Qorqud" dastanına edilən hücumlara aydınlıq gətirilməklə Azərbaycan xalqının adını dəyişdirməklə onu etnik söykökündən ayırmaq cəhdləri, SSRİ-də yaşayan millət və xalqları qul psixologiyasına tabe etmək və "böyük qardaş" rus xalqının köməyi ilə işıqlı gələcəyə, kommunizm quruculuğuna inandırmaq olduğu sənədlərlə sübut olunmuşdur.

**Yarımfəslin 2.1.2. paraqrafında "Stalinin ölümündən sonra mərkəzdə və respublikada cərəyan edən hadisələr və hakimiyyət uğrunda mübarizə"yə** aydınlıq gətirilərək sənədlərlə sübut olunur ki, Stalinin ölümündən sonra cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatlar ilk növbədə partiya nomenklaturasının hakimiyyətə təsirinin azaldılması və dövlət hakimiyyət orqanlarının idarəetmədə

---

[32] Azərbaycan tarixi: [7 cilddə] / red. hey. sədri T.Qaffarov.-Bakı: Elm-c.7.-2008. - 608 s., s.140.

rolunun artırılması fonunda baş verirdi. Dövlətdə birinci şəxsin Sov.İKP MK katibi deyil, SSRİ Nazirlər Sovetinin sədrinin müəyyənləşdirilməsi mövqelərini geri qaytarmaq istəyən partiya nomenklaturası və dövlət hakimiyyəti strukturları arasında hakimiyyət uğrunda mübarizəni gücləndirdi və ikincilərin məğlubiyyəti ilə nəticələndi.

Hakimiyyət uğrunda mübarizənin təsiri Azərbaycandan da yan keçmədi. M.C. Bağırov vəzifədən götürüldü, hakimiyyətə yeni qüvvələr gəldi. Dissertasiyada Teymur Quliyev və Mir Teymur Yaqubovun qısa müddətli hakimiyyətləri dövründə həm siyasi, həm də fiziki mövcudluğunu qorumaq uğrunda mübarizəyə arxiv sənədləri əsasında aydınlıq gətirilmişdir.

**II fəslin** ikinci yarımfəsli **"50-ci illərin ortalarında respublikada hakimiyyət dəyişikliyi, mülayimləşmə, ana dil uğrunda mübarizə" adlanır.** Bu yarımfəsil **3 paraqrafa** bölünür.

**"Respublikada hakimiyyət dəyişikliyi"** adlanan 2.2.1. paraqrada qeyd olunur ki, M.T.Yaqubov və T.Quliyevin M.C.Bağırova yaxın çevrədən olması Moskvanı narahat etdiyindən 1954-cü il fevral ayının 12-dən 16-dək davam edən XX qurultayın 4-cü iş gününün sonuna yaxın Azərbaycana rəhbərlik edən şəxslərin məsələsi həll edildi. AKP-nin XX qurultayının ardınca Azərbaycanda kadr dəyişiklikləri prosesinə start verildi. Hüquq – mühafizə orqanlarında da kadr dəyişikliyi baş verdi. Aprel ayında DİN iki hissəyə bölündü. Dövlət Təhlükəsizlik orqanları Azərb. SSR Nazirlər Sovetinin yanında DTK – ya çevrildi. DTK sədri A. Quskov, Daxili İşlər Naziri isə A. Bulıqa təyin olundu. Moskva hüquq-mühafizə orqanlarına öz emissarlarını təyin etməklə Azərbaycan rəhbərliyi üzərində öz nəzarətini saxlamağa çalışırdı.

Lakin bir müddət sonra Moskva emissarı Quskovun respublika rəhbərliyinə tabe olmama, özünü müstəqil aparma cəhdi onun DTK-nı öz nəzarətində saxlamağa çalışan AKP MK birinci katibi İ. Mustafayevlə toqquşmasına səbəb oldu.

Respublikaya nəzarəti gücləndirmək məqsədi ilə 1955-ci il noyabrın 12 – də Sov. İKP MK katibliyinin qərarı ilə Dmitri Nikolayeviç Yakovlev ikinci katib "seçilmək" üçün AKP MK-nın sərəncamına göndərildi. Noyabrın 22 - də o, AKP MK-nın II katibi

vəzifəsini tutdu[33].

XX qurultaydan sonra kadr siyasətində baş verən dəyişikliklərdən biri də tədricən dövlət idarəetmə orqanlarına kadrların irəli çəkilməsində həddindən artıq siyasi yanaşmaların öz əhəmiyyətini itirməsi oldu.

**“Mülayimləşmə” adlanan 2.2.2. paraqrafda** Sov.İKP XX qurultayından sonra cəmiyyətdə baş verən mülayimləşmə tendensiyası araşdırılmışdır.

50- ci illərin ikinci yarısında gedən proseslərin ən önəmlisi bəraətvermə və reabilitasiya prosesinin genişlənməsindən bəhs olunur. 1956-cı ildə Azərbaycan Ali Məhkəməsinin sədr müavini Sultan İmanovun imzası ilə AKP MK-ya göndərilmiş arayışda bildirilirdi ki, 1954-cü ilin oktyabrından 1956-cı ilin mayınadək Ali Məhkəməyə SSRİ və Azərb. SSR prokurorluğunun imzası ilə 939 iş daxil olmuşdur. Azərb. SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə kollegiyasının araşdırması nəticəsində 918 iş üzrə 2024 nəfərin işinə baxılmış, 770 iş üzrə 1829 nəfərin cinayət işi dayandırılmış, 127 iş üzrə 171 nəfərin məhkumluğunun ləğv edilməsi barədə qərar qəbul edilmiş, 21 iş üzrə 24 nəfərin məhkumluq cəzası aşağı salınmışdır[34].

Azərbaycan xalqının milli kimlik pasportu olan “Kitabi-Dədə Qorqud” dastanı bəraət aldı[35].

**Yarımfəslin “Ana dili uğrunda mübarizə” adlanan 2.2.3. paraqrafında** ana dili uğrunda mübarizənin müxtəlif tərəfləri araşdırılmışdır. Paraqrafda Azərbaycan ziyalılarının və rəhbərliyinin birgə mübarizəsi nəticəsində 1956-cı il avqustun 20 və 21-də Azərb. SSR-in 4- cü çağırış Ali Sovetinin III sessiyasında “Azərbaycan dilinin dövlət dili olması haqqında Azərb. SSR Konstitusiyasına maddə əlavə

---

[33] Həsənli, C.P. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar / C. Həsənli. – Bakı: Adiloğlu, – 2008. – 543 s.. s.60.

[34] Справка «О пересмотре дел Верховным судом Азербайджанской ССР по реабилитации граждан неосновательно осужденных за тягчайшие преступления против государства по состоянию с 1/X-54 г. по 10 /V-56 года» (Баку: 10 мая 1954 года) // АОПДУДПАР, Фонд №1, опись № 43, дело № 181, лист – 8-9.

[35]Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə “Kitabi -Dədə-Qorqud” dastanları haqqında. (Bakı: 19 noyabr 1956-cı il.) ARPİİİSSA, // Fond № 1, siyahı № 44, iş № 39, vərəq – 149-166.

edilməsi haqqında" qanunun qəbul edilməsi[36], Moskvanın buna münasibəti, Azərbaycan dövlətinin milli mənafelərinin qorunması uğrunda mübarizəsi tədqiq olunmuş və Azərbaycan rəhbərliyinin mütləq qələbəsi öz əksini tapmışdır.

Dissertasiyanın II fəslinin 2.3.yarımfəsli "**Mərkəzdə islahatçılıq cəhdlərindən və liberalizm meyillərindən imtina**. **Respublikada növbəti hakimiyyət dəyişikliyi**" adlanır və **2 paraqrafdan ibarətdir**.

"**Mərkəzdə islahatçılıq cəhdlərindən və liberalizm meyillərindən imtina" adlanan 2.3.1. paraqrafda** Stalinin ölümündən sonra mülayimləşmə siyasətindən, müttəfiq respublikalardakı milli oyanışdan, digər müttəfiq respublikalardan fərqli olaraq Azərbycanda bu milli oyanışın partiya və dövlət rəhbərliyi səviyyəsində dəstək qazanmasından və Mərkəzin narahatlığından bəhs olunur. Xüsusilə Azərbaycan dilinin dövlət dili statusu alması, bu məsələdə Azərbaycan rəhbərliyinin geriyə elə bir addım atmaması və Azərbaycanda baş verən hadisələrin Sovet imperiyasının digər respublikalarına təsir göstərməsi Moskvanın hərəkətə keçməsinə səbəb oldu.

**II fəslin "Respublikada növbəti hakimiyyət dəyişikliyi 2.3.2. paraqrafında**1958-1959-cu illərdə Azərbaycanda baş vermiş siyasi hadisələr arxiv materialları vasitəsilə tədqiqata cəlb olunmuş və baş verən hadisələrə siyasi qiymət verilmişdir.

Azərb. SSR-də Moskvanın hakimiyyət dəyişikliyinə hazırlığı, Azərbaycana 26 nəfərdən ibarət komissiyaya göndərilməsi və komissiyanın araşdırma nəticələri, sənədlər əsasında araşdırılmışdır.

**II fəslinin "Azərbaycan SSR 60 - cı illərdə: ictimai - siyası həyat" adlanan 2.4. yarımfəsli iki paraqrafdan ibarətdir. "Mərkəzin respublikadakı ictimai-siyasi vəziyyətə nəzarəti gücləndirmə cəhdləri" adlanan 2.4.1.paraqrafında** AKP MK-nın 1959-cu il IX Plenumunun ardınca hakimiyyətə gələn yeni rəhbərlik Moskva qarşısında respublikada ictimai-siyasi həyatı nəzarətdə saxladığını göstərmək üçün tədbirlərindən bəhs olunur.

---

[36]Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barəsində maddə əlavə edilməsi haqqında qanun. (Bakı: 21 avqust 1956- cı il) // ARDA, Fond № 2941, siyahı № 9, iş № 59 , vərəq – 255.

Milli şüurun canlanmasının daha yüksək təzahür etdiyi ali məktəblərdən göndərilən arayışlar xüsusi əhəmiyyət kəsb edirdi. Çünki sosialist gələcəyin inkişafı məhz bu tələbə gənclərin mövqeyindən asılı idi. Buna görə də tədqiqat işində tələbə gənclərlə bağlı dövlət siyasəti araşdırılmış və müəyyən elmi nəticələr əldə olunmuşdur.

Bölmədə eyni zamanda Azərbaycanın Rusiyaya birləşdirilməsinin 150 illiyinin təntənə ilə qeyd olunmasına qarşı ziyalılarımızın etirazına da yer verilmişdir. 60-cı illərin ikinci yarısının ən mühüm hadisələrindən biri olan Novruz bayramının xüsusi təmtəraqla, milli bayram kimi qeyd olunması və bu işdə görkəmli ictimai xadim AKP MK katibi Ş.Qurbanovun əməyi xüsusi işıqlandırılmışdır

50-60-cı illərdə SSRİ-də həyata keçirilən uğursuz islahatlar, Sov.İKP-nin XXII (1961 oktyabr) qurultayının elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyaların cəmiyyətdə və partiyada birmənalı qarşılanmaması, N.S.Xruşşovun hörmətdən düşməsi və Moskvada dövlər çevrilişinin nəticələrinin Azərb SSR- ə təsiri ikinci yarımfəslin **“Moskvada dövlət çevrilişi və Azərbaycan” adlanan (2.4.2.) paraqrafında araşdırılmışdır.**

Partiya-təsərrüfat rəhbərliyi Xruşşovun iqtisadi və siyasi dəyişikliklərinə xəyanətkar yeniliklər kimi baxırdı. Sıravi vətəndaşlar qiymətlərin qalxmasından, piştaxtaların boşalmasından narahat idilər. Şəxsi kəndli təsərrüfatının sıxışdırılması yolu ilə məhv edilməsi nəticəsində kəndlinin həyat səviyyəsi 1964-cü ildə 1940-cı ilə nisbətən daha aşağı səviyyədə idi[37]. Bütün bu faktlar N.Xruşşovun devrilməsini sürətləndirdi

AKP MK 1969-cu il iyulun 8-də repressiya olunmuşlar məsələsinə yenidən qayıtdı. Azərb. SSR-in yaranmasının 50 illiyi ilə əlaqədar olaraq görkəmli dövlət xadimləri və sovet hakimiyyəti uğrunda mübarizlərin adlarını əbədiləşdirmək haqqında qərar qəbul etdi. Onların siyahısında 1937-1938-ci illərdə repressiya olunmuşların

---

[37] Чураков, Д. О. СССР при Брежневе. Правда великой эпохи / Д. Чураков. – Москва: Вече, – 2014. – 320 с. с.45

da adları vardı[38] Bu hadisə V.Axundovun vəzifədən getməsinə sürətləndirdi.. Nəticədə 14 iyul 1969-cu il plenumunun qərarına görə V.Axundov sağlamlığı və Azərb. SSR Elmlər Akademiyasının vitse-prezidenti seçilməsi ilə əlaqadar AKP MK-nın I katibi vəzifəsindən azad edildi. Plenum Heydər Əlirza oğlu Əliyevi AKP MK-nın üzvlüyünə namizəddən üzvlüyə keçirərək AKP MK-nın I katibi seçdi [39]. Bununla da Azərbaycanın öz tarixinin yeni dövrünə -intibah dövrünə qədəm qoyduğu əsaslandırılmışdır.

Dissertasiyanın **“XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-də dövlətin din münasibətləri. Milli dirçəliş meyilləri. Erməni separatizminə qarşı mübarizə”** adlanan **III fəsli 3 yarımfəsildən** ibarətdir**. “Azərbaycan SSR-də din siyasətinin ictimai – siyasi həyatda inikası”** adlanan **(3.1.)** yarımfəsildə Azərbaycanda fəaliyyət göstərən dini icmalar və təşkilatlar içərisində agentura işlərinin genişləndirilməsi, Zaqafqaziya Müsəlmanları İdarəsinin dövlət təhlükəsizliyi orqanlarının nəzarətinə götürülməsi və dini idarənin 7 nəfərdən ibarət ali şurasında onların öz adamlarını yerləşdirilməsi[40], Sov.İKP MK-nın “Müqəddəs yerlər” deyilən yerlərdə ziyarətlərin dayandırılması barədə” 1958-ci il 28 noyabrın tarixli qərarından sonra “Müqəddəs yerlər”in dağıdılmağa başlanması, onlardan təsərrüfat ehtiyacları üçün istifadə olunması, bir hissəsinin istirahət müəssisələrinə verilməsi, bəzi hallarda muzey filialları yaradılması, 1961-ci ildə Cinayət məcəlləsinə “Dini ayinlərin icrası adı altında vətəndaşların şəxsiyyətinə və hüquqlarına toxunma” adlı 141- 1 maddəsinə 3 ilədək həbs və ya 5 il sürgün əlavə edildiyi[41] faktlarla

---

[38] Постановление Бюро Центрального Комитета Компартии Азербайджана «Об увековечении памяти видных и государственных деятелей и активных участников борьбы за победу Советской власти в Азербайджане.» (Баку: 8 июля 1969 года) // АОПДУДПАР, Фонд №1, опись № 56, дело № 44, лист – 74-109

[39] Материалы заседания XVI Пленума Центрального Комитета Компартии Азербайджана (Баку: 14 июля 1969 года) // АОПДУДПАР, Фонд №1, опись № 56, дело № 5, лист –7-10

[40] Həsənli, C.P.Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar / C. Həsənli. – Bakı: Adiloğlu, – 2008. – 543 s., s.97.

[41]Azərbaycan SSR Cinayət və Cinayət Prosessual məcələlərinə əlavələr haqqında Azərbaycan Ali Soveti Rəyasət heyətinin fərmanı (Bakı: 4 may 1961-ci il) // ARDA, Fond № 2941, siyahı № 7, iş № 1252 , vərəq – 170-171.

göstərilmişdir.

**III Fəslin "Milli özünüdərk prosesinin güclənməsi" yarımfəslində (3.2.)** 50-60-cı illərdə Azərb SSR-də milli özünüdərk prosesi arxiv materialları əsasında araşdırılmışdır. Sənədlərin öyrənilməsi və təhlili göstərir ki, milli dəyərlər uğrunda aparılan mübarizədə Azərbaycan ziyalısı öndə gedirdi. Azərbaycan dilinin dövlət dili statusu alması, "Xalq Azadlığı Komitəsi" (1960), "Milli Azadlıq Qərargahı" (1962) və "Azərbaycan Dilinin Müdafiə Komitəsi" (1965) kimi gizli təşkilatların mövcudluğu Azərbaycan ziyalısının mübarizəsindən xəbər verirdi.

50-ci illərdə Sovet dövlətinin ciddi narahatlığına səbəb olan məsələlərdən biri də xaricdəki mühacirlərin və legionerlərin fəallığının artması idi.

Dissertasiyada 1963-cü il noyabrın 7-də - Oktyabr inqilabının 46-cı ildönümündə Sumqayıtda baş verən hadisələrə aydınlıq gətirilmişdir.

XX əsrin 60-cı illərində Azərbaycanda mövcud sovet rejiminə qarşı mübarizə aparan müxtəlif siyasi qruplar da fəaliyyət göstərirdilər. Belə təşkilatlardan biri 1962-ci ildə bir qrup ziyalı tərəfindən yaradılmış "Milli Azadlıq Qərargahı"[42] başqa adla isə "Milli Azərbaycan Qərargahı" olmuşdur.

60-cı illərdən başlayan milli-azadlıq hərəkatının öncüllərindən biri Bəxtiyar Vahabzadə idi. Onun 1958-ci ildə yazdığı "Gülüstan" poemasında iki yerə parçalanmış Azərbaycan xalqının azadlıq və istiqlal uğrunda ədalətli mübarizəsi əks olunmuşdu. Mövcud rejimi açıqdan-açığa tənqid edənlərdən biri də şair Xəlil Rza idi. Onun yazdığı "Ana dili" şeiri və "Məftillə sarınmış yaralar" poeması cəmiyyətdə ciddi rezonans doğurmuşdu.

B.Vahabzadə və X.Rzadan bəhs edən Ümummilli lider Heydər Əliyev Milli Təhlükəsizlik əməkdaşlarının peşə bayramına həsr olunmuş yığıncaqda demişdir: *"'Mən bu gün böyük bir iftixar hissi ilə deyə bilərəm ki, Dövlət Təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə olduğum zaman və ondan sonra ... bir dissident belə həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğatı üstündə həbs*

[42] Azərbaycan tarixi: [7 cilddə] / red. hey. sədri T.Qaffarov. – Bakı: Elm, – c.7. – 2008. – 608 s., s.119.

*etməmişdik. ...DTK-da işləyən zaman B. Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim... Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. ...Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı, "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o adamı həbs etmək məsələsini qoymuşdular. X. Rzanı da həbs etmək məsələsini qoymuşdular ... "*[43].

Ümummilli lider H. Əliyevin Milli Təhlükəsizlik əməkdaşlarının peşə bayramına həsr olunmuş yığıncaqda B.Vahabzadə və R. Rza ilə əlaqədar fikirlərindən aydın olur ki, 60-cı illərdə milli dissident hərəkatının coğrafiyası əhəmiyyətli dərəcədə genişlənməyə başlamışdı.

**Dissertasiyanın 3.3.yarımfəsli "Erməni separatizminə qarşı mübarizə"** araşdırılmışdır**.**

Arxiv sənədlərinin təhlili göstərir ki, Bəhs olunan dövrdə də erməni separatizmi Azərbaycanda ictimai - siyasi həyata ciddi şəkildə təsir göstərirdi. Azərbaycanda baş qaldırmış milli dirçəliş meyillərinin qarşısını almaq üçün etnik ədavət yenidən qızışdırılırdı. Dağlıq Qarabağ və Naxçıvan məsələsinin yenidən ortaya atılması və bəzi məqamlarda buna leqal xarakter verilməsi Azərbaycanda milli oyanışın güclənməsi ilə bağlı idi. Mərkəzin maraqlarına uyğun olaraq süni şəkildə Ermənistanda Azərbaycana qarşı ərazi iddiası açıq müstəviyə keçirilir və antitürk əhval-ruhiyyəsi yaradırılırdı

Arxiv materiallarının təhlilindən belə nəticəyə hasil olur ki, Moskva istər Ermənistan SSR-də, istər də Azərb. SSR-in DQMV-də baş verən kriminal hadisələri, təxribatçı və separatist hərəkətləri müdafiə edir, hətta cinayətkarların cəzalarını yüngülləşdirməyə imkan yaradırdı.

Dissertasiyanın **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış, tədqiqatın məqsəd və vəzifələrindən irəli gələn yeni elmi fikir və mülahizələr öz əksini tapmışdır. Araşdırmalardan müəyyənləşdirilmişdir ki, Sovet dövləti mövcud olduğu dövr ərzində totalitar inzibati amirlik sisteminə uyğun fəaliyyət göstərmiş, XX əsrin 30-cu illərinin ortalarında qəbul edilmiş konstitusiyada demokratik azadlıqlar

[43] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev.-Bakı: Azərnəşr,- c. 10. - 2002. - 472 s., s.342.

nəzərdə tutulsa da, cəmiyyətdə fikir və söz azadlıqlarının əsas göstəricisi olan plüralizmin olmaması sovet cəmiyyətinin sonrakı inkişafını şübhə altına almışdı.

Tədqiqat göstərdi ki, sovet idarəetmə sistemində Ali Sovet qanunverici funksiyanı daşımış Ali Sovetin Rəyasət Heyəti hüquqi cəhətdən sərəncamverici və fərmanverici rol oynamaqla burjua cəmiyyətlərinin prezident səlahiyyətlərini öz əlində cəmləmişdir. İcra hakimiyyətinə gəldikdə isə Azərb. SSR-də digər müttəfiq respublikalara nisbətən daha çox şişmiş icra hakimiyyətinin mövcud olmuşdur. Dövlət hakimiyyətinin digər bir qolu – hüquq-mühafizə sistemi Kommunist Partiyasının inhisarında idi.

Dövrün iqtisadi həyatının təhlili göstərir ki, müəyyən iqtisadi uğurlar qazanılsa da, iqtisadi çətinliklərin aradan qaldırılması və yaxşılaşdırılması məqsədiə yaradılan XTŞ-nin yaradılması səmərəli nəticə verməmişdir.

Tədqiqatlar göstərdi ki, "Velikorus" ideologiyasının təbliğatı zamanı milli-etnik mədəniyyətin inkarı ön planda olmuş, digər xalqları cılızlaşdırmaq siyasəti yeridilmiş, nəticədə milli ictimai fikrin ideya daşıyıcısı olan milli ziyalılar həm fiziki, həm də mənəvi repressiyaya məruz qalmışlar.

Sovet dövlətinin dinlə bağlı yeritdiyi siyasətin əsasında insanları öz mədəni irsindən, adət-ənənələrindən uzaqlaşdırmaq, yeni yaranmaqda olan sovet modelli sosialist mədəniyyəti və onun daşıyıcısı olan insan formalaşdırmaq dayanmışdır.

XX qurultaydan sonra totalitar rejimin buzu əridikcə SSRİ xalqlarının, o cümlədən Azərbaycan xalqının milli şüurunun oyanması güclənirdi. Azərbaycan dilinin dövlət dili statusu alması, "Xalq Azadlığı Komitəsi"(1960), "Milli Azadlıq Qərargahı " (1962) və "Azərbaycan Dilinin Müdafiə Komitəsi" (1965) kimi gizli təşkilatların mövcudluğu Azərbaycan ziyalısının mübarizəsindən xəbər verirdi. Azərbaycan dissident hərəkatı əslində yeni bir ictimai fikri formalaşdıran maarifçilik hərəkatı olmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. XX əsrin 60-cı illərində Azərbaycan SSR-də milli - dirçəliş

meylləri. “Milli Azadlıq Qərargahı” // Azərbaycanşünaslığın aktual problemləri VI beynəlxalq elmi konfransın materialları. II hissə Bakı: – 5-7 may, – 2015, – s.442-444.
2. XX əsrin 50-ci illərində Azərbaycan SSR-də dövlət dili uğrunda mübarizə // “Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” Beynəlxalq elmi konfransın materialları. II hissə Bakı: – 5-7 may, – 2016, – s.376-378.
3. XX əsrin 50 -60-cı illərində SSRİ də aparılana uğursuz islahat cəhdləri və Azərbaycan .// Doktorantalrın və Gənc tədqiqatçıların XX Respublika Elmi Konfransının Materialları I cild – Bakı: 24-25 may – 2016 –s.513-515.
4. XX əsrin 50 -60-cı illərində Azərbaycan SSR-də dövlət idarəetmə sistemi: icra hakimiyyəti // – Bakı: Sivilizasiya, – 2017, cild 6 № 2 (36) – s.88-96.
5. XX əsrin 50 -60-cı illərində Azərbaycan SSR-də ictimai- siyasi həyata təsir göstərən etno-demoqrafik proseslər //– Bakı: Tarix , İnsan və Cəmiyət elmi- nəzəri və elmi metodiki jurnal, – 2017, 2 (17) – s. 68-77.
6. XX əsrin 50 -60-cı illərində Cənubi Qafqada Erməni separtizminə qarşı mübarizə // Qafqazşünasların I Beynəlxalq forumu. Elmi məruzələr 2- kitab – Bakı: 17- 18 aprel –2017, – s.295-304.
7. XX əsrin 50 -60-cı illərində Azərbaycan SSR-də dövlət idarəetmə sistemi: məhkəmə hakimiyyəti // – Bakı: Tarix və onun problemləri, – 2017, № 4 – s.236-246.
8. Тенденции национального возрождения в 50-годах XX века в Азербайджанской ССР//-Одесса Державний заклад «Південноукраїнський національний університет імені К. Д. Ушинського» Політикус – 2017. Випуск № 6 – с.48-52.
9. XX əsrin 50 -60-cı illərində Azərbaycan SSR-də dövlət idarəetmə sistemi-Ali qanunvericilik və yerli özünüidarəetmə orqanları //– Bakı: Pedoqoji Univerisitetin xəbərləri Humanitar, ictimai və pedaqoji elmlər seriyası, – 2018, cild. 66 №1– s.208-219.
10. XX əsrin 50 -60-cı illərində Azərbaycan SSR-də antidin siyasətinin ictimai həyatda inkası // –Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnsititutu Elmi Əsərləri, –2018. cild 69– s.37-49.

11. Социальная жизнь в Азербайджанской ССР с 50-60 годов XX века // Международной научно-практической конференции: «250 лет единения России и Ингушетии: время, события, люди». Магас: 03-06 июня 2020 г. с. 51-54.
12. XX Əsrin 50- 60-cı illərində Azərbaycan SSR-də kadr siyasəti. Nomenklatur sistem // –Bakı: Azərbaycan Milli Elmlər Akademiyası “Sosial elmlər”elmi nəzəri jurnal “ELM” – 2021. № 2 – s.11-16.
13. Azərbaycan Kommunist Partiyası XX əsrin 50-60-cı illərində // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası “Sosial elmlər”elmi nəzəri jurnal “ELM” – 2022. № 1 – s. 78-89.
14. 20.Yüzyılın 1950'li Yıllarında “Velikorus” Şovenizmi ve Azerbaycan // –İstanbul: Akademik Tarih ve Düşünce Dergisi. Eylül 2022 . Cilt:9 / Sayı:3 s. 930-945.
15. Политическая жизнь Азербайджанской ССР в 1953-1955 гг // «Современная научная мысль» Научный журнал НИИ Истории, Экономики и Права. - М.: НИИ ИЭП, 2023. - № 4. - с.94 -103.

Dissertasiyanın müdafiəsi 10 oktyabr 2024-cü il saat 13⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 02 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.08.2024

Kağızın formatı: A5

Həcm: 47 910

Tiraj 100